# Gəncədə "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" adlı konfrans keçirilmişdir

**Gəncə Şəhər İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Gəncə bölgəsi üzrə şöbəsinin dəstəyi, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Gəncə şəhəri üzrə Regional nümayəndəliyinin təşkilatçılığı ilə "İmamzadə" dini ziyarətgah kompleksində "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" adlı regional konfrans keçirilmişdir.**



Konfransda şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək diqqətə çatdırmışdır ki, Azərbaycan xalqı olduqca zəngin milli-mənəvi dəyərlərə sahibdir: "Xalqımız tarixin ən çətin dövrlərində belə, bu dəyərlərə sadiq çıxmış, onu qoruyaraq gələcək nəsillərə çatdırmışdır. Ümummilli Lider hər zaman milli-mənəvi dəyərlərimizə çox böyük hörmətlə yanaşıb. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin təbliği istiqamətində mühüm addımlar atılıb. Bu gün də hər birimizin vəzifəsi, Ulu Öndərin dediyi kimi, azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmaqdır".

Sonra Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Gəncə şəhəri üzrə nümayəndəsi Hacı Tahir Abbasov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov və başqaları Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının dövlətçilik tarixindəki müstəsna xidmətlərindən, milli-mənəvi dəyərlərimizə olan qayğısından danışmış, Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, dünya miqyaslı siyasətçi İlham Əliyevin müasir Azərbaycan dövlətinin tarixindəki rolundan söhbət açmışlar.

Konfransın sonunda Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə hazırlanan "Ulu Öndər və milli-mənəvi dəyərlər" mövzusunda videoçarx nümayiş etdirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 9 dekabr, № 269.- S.11.